## İcbari sığorta növlərinə maraq artıb...

Ötən ilin sonlarından yeni «İcbari sığortalar haqqında» Qanunun tətbiqinə başlanılmışdır. Bu Qanun dörd icbari sığorta növünün - daşınmaz əmlakın, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin, daşınmaz əmlak sahiblərinin mülki məsuliyyətinin və sərnişinlərin icbari sığortası üzrə qaydaları və şərtləri müəyyən edir, sığortaçılar, sığortalılar, sığorta olunanlar və faydalanan şəxslər arasında hüquqi və iqtisadi münasibətləri tənzimləyir. «İcbari sığortalar haqqında» Qanunda nəzərdə tutulan hər hansı icbari sığorta növünü aparmağa icazə almaq və bu növ üzrə fəaliyyət göstərmək üçün sığortaçı İcbari Sığorta Bürosunun iştirakçısı olmalı, müvafiq icbari sığorta növü üzrə müəyyən edilmiş məbləğdə təminat depoziti yerləşdirməlidir. Büro zərərçəkən sığorta olunanların və zərər vurulan üçüncü şəxslərin maraqlarının müdafiəsini, icbari sığorta sisteminin sabitliyi və inkişafını təmin etmək üçün, eyni zamanda, qanunla nəzərdə tutulan funksiyaların həyata keçirilməsi məqsədilə təsis edilib və hazırda Büroya 12 sığorta şirkəti üzv olub.

Büroya daxil olan ilk sığorta şirkətlərindən olan «Atəşgah» Sığorta Şirkəti ilə İcbari sığortalar haqqında qanunun icrası, icbari sığortanın aktuallığının hansı həddə olduğunu araşdırmağa cəhd etdik. «Atəşgah» SŞ İdarə Heyətinin sədr müavini Aytən Hüseynova «Vergilər»ə bildirdi ki, «İcbari sığortalar haqqında» yeni Qanun «sığorta» termininin ictimai qruplar arasında populyarlaşmasına səbəb olub. Qanunun qəbulundan sonra icbari sığorta polisi əldə edənlər daha sonra könüllü sığorta növləri ilə də maraqlanmağa başlayıblar.

«İcbari sığortalar haqqında» Qanunun yerinə yetirilmə səviyyəsinin qənaətbəxş hesab edildiyini deyən şirkət nümayəndəsi qeyd etdi ki, cari ilin sentyabr ayında bağlanmış icbari sığorta müqavilələri üzrə daxil olan sığorta haqlarının məbləği ümumilikdə 6 milyon manatdan çox olmuşdur: «İcbari Sığorta Bürosunun ilk üzvü olaraq hazırda 3 icbari sığorta növü - avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin; daşınmaz əmlakın; daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası üzrə xidmət göstəririk. Sərnişinlərin icbari fərdi qəza sığortası üzrə xidmət göstərmək məsələsinə yaxın gələcəkdə baxılacaq. Onu da deyim ki, şirkətimiz tərəfindən onlayn sığorta xidməti də göstərilir. «Atəşgah» Sığorta Şirkəti və avtomobil portalı olan «auto.az»ın bu ilin martından həyata keçirdiyi birgə layihənin üstünlüyü ondadır ki, istənilən avtomobil sahibi evdən və ya ofisdən çıxmadan öz avtomobilini sığortalaya, sığorta kalkulyatoru (www.sigorta.auto.az) vasitəsilə icbari və avto- KASKO polislərinin dəyərini hesablamaqla onlayn rejimdə onları sifariş edə bilər. Sığorta polisi «Atəşgah» SŞ-nin sığorta məsləhətçisi tərəfindən paytaxt ərazisində ödənişsiz olaraq sifarişçinin istədiyi yer və zamanda çatdırılır».

A.Hüseynova deyir ki, «Atəşgah» Sığorta Qrupu («Atəşgah» SŞ və «Atəşgah Həyat» SŞ) fiziki və hüquqi şəxslərə 20-dən artıq sığorta növü üzrə xidmət göstərir. Şirkətə həm icbari, həm də könüllü sığorta üzrə çoxsaylı müraciətlər daxil olur. Lakin bu müraciətlər içərisində ən aktualı icbari və könüllü avtomobil sığortası növləridir və bu növlər ilə əlaqədar müraciət edənlərin sayı digərləri ilə müqayisədə çoxdur. Bununla yanaşı, səfər və əmlak sığorta növlərinə də maraq böyükdür.

Sığorta hadisəsi baş verdikdə ödənişlərdən imtina hallarının olmasından insanların narahatlıq keçirdiklərinə aydınlıq gətirən şirkət nümayəndəsinin sözlərinə görə, sığorta münasibətləri müqavilə ilə müəyyən edilir. Hansı halların sığorta təminatı ilə əhatə edildiyi, hansı hallara təminat verilmədiyi müqavilə şərtləri ilə dəqiq müəyyənləşdirilir: «Müqavilə şərtlərini könüllü sığorta növlərində sığorta şirkətləri, icbari sığorta növlərində isə qanun müəyyən edir. Ödənişdən imtinaların ən geniş yayılmış əsasları kimi, məsələn, avtomobilin sərxoş vəziyyətdə və ya sürücülük vəsiqəsi olmadan idarə olunması, hadisənin araşdırılmasına maneə göstərilməsi, hadisənin müvafiq orqanda, yəni yol polisi orqanlarında qeydə alınmasından boyun qaçırılması, sığortalının özünün və ya ailə üzlərinin avtomobilə bilərəkdən ziyan vurması və s. kimi hallardır ki, belə hallarda ödəniş edilmir».

A.Hüseynovanın sözlərinə görə, sığorta şirkətlərinə inam əvvəlki illərlə müqayisədə hazırda daha çoxdur. Bunun başlıca səbəbi isə bu sahədə maarifləndirilmə işlərinin aparılması ilə sığorta şirkətləri haqqında insanlarda formalaşmış yanlış fikirlərin aradan götürülməsidir: «Azərbaycanda sığorta - biznesin nisbətən gənc sahəsi hesab edilir. Sovetlər dövründə yalnız dövlət sığorta təşkilatı var idi və onun fəaliyyəti bazar iqtisadiyyatı sistemindəki fəaliyyətdən fərqli idi. Hazırda vəziyyət dəyişmək üzrədir. Müqayisə üçün, 2000-ci ildə «Atəşgah» SŞ-nin sığorta portfelinin 90%-ni xarici şirkətlər və şəxslər təşkil edirdi. İndi isə şirkətin sığorta portfelinin təqribən 20%-i xarici

müştərilərin, 80%-i isə yerli hüquqi və fiziki şəxslərin payında düşür. Bu o deməkdir ki, sığortaya münasibət tədricən müsbətə doğru dəyişir. Bu işdə isə əsas rolu sığorta şirkətləri özü oynamalıdır. Onlar əhali arasında geniş maarifləndirmə işi həyata keçirməli, sığortanın üstünlüklərini insanlara çatdırmalıdırlar».

AYTƏN